# Partiyalar uğurlardan qürurlanır

**Azərbaycanda fəaliyyət göstərən 23 siyasi partiyanın sədri Prezident İlham Əliyevə Qarabağda aparılmış antiterror tədbirlərinin nəticələri ilə bağlı və ölkəyə rəhbərliyinin 20 illiyinin tamam olması münasibətilə müraciət ünvanlamışlar.**

Sənəddə qeyd edilir ki, Azərbaycan xalqının milli birliyi, müzəffər ordumuzun qəhrəmanlığı və Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi bütün dünya azərbaycanlılarına bugünkü qürur dolu anları yaşadır: "Siyasi baxışlarından asılı olmayaraq indi hər bir Azərbaycan vətəndaşı dərk edir ki, tarixin bütün dövrlərində başımıza gələn faciələr, torpaqlarımızın itirilməsi, soydaşlarımızın öz doğma yurdlarından didərgin salınması, suverenliyimizin pozulması milli birliyin olmamasından, hərbi və iqtisadi gücümüzün zəifliyindən irəli gəlmişdir".

Bildirilir ki, dövlət başçısının uzun zaman böyük səbir, təmkin və iradə göstərərək Azərbaycanın daxili və xarici siyasətində nail olduğu uğurlar ölkəmizi addım-addım Zəfər gününə, ərazi bütövlüyünün təmin olunmasına, suverenliyin tam bərpa edilməsinə yaxınlaşdırmışdır: "Ötən 20 il ərzində Azərbaycan Sizin rəhbərliyiniz altında öz ərazi bütövlüyünü təmin etmək, suverenliyini bərpa etmək, məcburi köçkünlərimizin doğma torpaqlarına qayıtmasına nail olmaq üçün çətin sınaqlardan keçmişdir. Siz Qarabağda kök salmış cinayətkar rejimin, terrorçu dəstələrin, onların xarici havadarlarının ölkəmizə yönələn təhdidlərinin qarşısının alınması üçün bu illər ərzində Azərbaycan üçün güclü iqtisadiyyat və müasir ordu qurmusunuz. Bununla yanaşı, Siz Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsi, ölkəmizin dünya birliyində layiqli yer tutması, güclü beynəlxalq tərəfdaşlar qazanması üçün uzaqgörən siyasət həyata keçirmisiniz. Bu baxımdan 44 günlük haqq savaşımızda bütün Azərbaycan xalqı həm də xarici siyasətdə əldə olunan uğurların möhtəşəmliyinə şahidlik etmişdir".

Müraciətdə daha sonra qeyd edilir ki, indi Azərbaycan dövləti uzun tarixi dövrdən sonra Vətən müharibəsi Zəfərinin təntənəsini yaşayır. Azərbaycan ərazisində heç bir mənəvi, siyasi və hüquqi əsası olmadan yaradılan qondarma rejim böyük Qələbənin nəticəsində tarixin qaranlığına qərq olmuşdur: "Bu gün böyük siyasi iradənin, milli birliyin, güclü ordunun nəticəsində Azərbaycan bayrağı Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə dalğalanır. Azərbaycan Respublikasının Konstitusiyası bütün ölkə ərazisində vahid Ana qanun kimi tətbiq olunur. Yaşadığımız bu qürurlu anlar məhz güclü iqtisadiyyatımızın, qəhrəman ordumuzun və milli birliyimizin, həmrəyliyimizin nəticəsində mümkün olmuşdur.

Cənab Prezident, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar ölkəmizin xoşbəxt gələcəyi naminə bir daha siyasi həmrəyliyini bildirir, xalqımızın firavanlığı, dövlətimizin əbədi suverenliyi üçün apardığınız uğurlu daxili və xarici siyasətdə Zati-alinizə dəstəyini bəyan edir".

**XQ**

Xalq qəzeti .- 2023.- 17 oktyabr, № 226.- S.9.